# MƏNBƏŞÜNASLIQ

*T.Həsənzadə. Azərbaycan Xalq Cümhuriyyətinin lideri “Yeni Kafkasya” ilə İstanbulda // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.131-134.*

UOT: 94(479.24)

**Tahirə Həsənzadə**
*Tarix üzrə elmlər doktoru, baş elmi işçi*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26*
*e-mail: info@manuscript.az*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN LİDERİ "YENİ KAFKASYA" İLƏ İSTANBULDA

*Azərbaycan milli qurtuluş hərəkatının lideri, görkəmli siyasi xadim Məhəmməd Əmin Rəsulzadə (1884-1955) XX əsrin yetirdiyi tanınmış tarixi şəxsiyyətlərdəndir. Bu siyasi xadimin zəngin, elmi-publisistik irsi ilə tanış olan hər kəs, onun Azərbaycan tarixinin gözəl bilicisi, ədəbi əsərləri dərindən tədqiq edən qüdrətli söz ustası olduğunu görəcək.*

***Açar sözlər:*** *M.Ə.Rəsulzadə, Azərbaycan Xalq Cümhuriyyəti, mühacirət, Ceyhun Hacıbəyli, Paris, İstanbul.*

### Giriş

*1918-20-ci illərdə Azərbaycanda baş vermiş və yüzilliyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna, ölkənin işğalına səbəb olmuş hadisələr həmin dövrün siyasi həyatını yaşamış bir çox ziyalını doğma Vətənindən ayrı saldı. Belə ziyalılardan biri Azərbaycan Xalq Cümhuriyyətinin lideri Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Rusiya, Helsinki, Almaniya, Varşava, İstanbul və digər ölkələrdə mühacir həyatı yaşamış Rəsulzadə, Avropa mətbuatında Azərbaycana aid yazılar dərc etdirir, Azərbaycan həqiqətlərini dünyaya yayırdı.*

Rəsulzadə 1884-cü ildə Bakının Novxanı kəndində anadan olmuşdur. O, antisovet “Müsavat” təşkilatının lideri idi. 1920-ci il 28 aprel işğalından sonra həbs olunmuş, xaricə mühacirət etmişdir. Tədqiqatçı, professor Şirməmməd Hüseynov onun fəaliyyətini yüksək qiymətləndirərək yazır ki, o, Türk ordusunu Bakıya gətirməsəydi, indi Azərbaycan yox idi (1, 395). Şimallı-cənublu Azərbaycanı və İranı, Türkiyəni yaxşı tanıyan Rəsulzadə deyirdi: “Türkəm, bu cəhətdən özümü xoşbəxt hiss edirəm” (1, 227). Türkçülükdə eyni zamanda azərbaycançılığı görən Rəsulzadə yazırdı: “Hələ Çanaqqala müharibəsində 400 minə qərib qurban verən türklər qazanc götürdülər degil, kendi həyatlarını müdafiəyə qadir olduqlarını isbat etmişlər. Artıq göstərdilər ki, həqiqətən onlar Vətən yolunda lazım gələrsə ölə bilərlər” (2,96).

Rusiyaya, oradan Finlandiyaya mühacirət etmiş Rəsulzadə Əlimərdan bəy Topçubaşova 16 avqust 1922-ci il tarixli məktubda ondan İstanbula səfərini gerçəkləşdirmək üçün məsləhət

gözlədiyini yazırdı. Həmin ilin dekabrında İstanbulda olan Rəsulzadə Ceyhun Hacıbəyliyə yazırdı ki, artıq qəzet çıxartmağın mümkün olacağına şübhə yoxdur: "İstanbula gəlişimdən bir neçə gün sonra Osmanlı dövründə IV çağırış Meclisi-Mebusanın İzmirdən deputatı Refet Paşa ilə görüşdüm. Məni son dərəcə səmimi və mehribanlıqla qəbul etdi. Onunla bizim üçün çox mühüm məsələlərlə bağlı danışa bildim. Burada qəzet çıxartmaq mümkün olacaq" (3, 18).

Rəsulzadə 15 iyul 1923-cü il tarixli məktubunda C. Hacıbəyliyə yazdığı "Bu günlərdə "Yeni Kafkasya" adı ilə bir qəzet çıxarmaq niyyətimdəyəm, iştirakınızı arzu edirəm. Hadisələr və məqalələrinizi gözləyirik" sözləri bu vətən aşiqinin İstanbulda gecə-gündüz çalışdığından xəbər verir. Həmin tarixli məktubda qəzetin maddi cəhətdən kasıb olduğu, bu səbəbdən də hələlik müəllif haqqını vermək iqtidarında olmadığı da bildirilirdi. O yazırdı: "Qəzetin adı da yeni düşünülmüş bir şey deyildir. Keçmişdə mövcud olan bir münasib addan istifadə edirik" (3,22).

"Yeni Kafkasya"nın ilk sayı İstanbulda 1923-cü il sentyabrın 26-da çapdan çıxdı. M.Ə.Rəsulzadənin məlumatından bəlli olur ki, ilk sayda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli ilə bağlı yazı dərc etmişdir. Qəzetdə çıxış edən müəlliflərin və ünvanın istiarələr (metafora, məcaz) altında gizli saxlandığı və buna ehtiyac olduğu bildirilirdi.

Qəzetin ilk sayı bütünlüklə M. Ə. Rəsulzadə tərəfindən yazılmışdı.

M.Ə.Rəsulzadə Mustafa Kamal Paşa Atatürkün rəhbərliyi altında xarici hərbi müdaxiləçilərə qarşı Milli İstiqlal Savaşnın yeni həmləsinin (1919-1922), bu zaman qələbənin ona çox yaxşı təsir etdiyini yazır və bunun xaricdə təsiri barədə Ceyhun Hacıbəylidən soruşurdu. Rəsulzadə yazırdı: "Bu, əsl inqilabdır. Şərq artıq, zarafatdan, əski ənənələrdən qurtularaq tam müasir bir həyat yaşamaq istəyir. Hamımıza mübarək olsun " (3,33). Parisdə yaşayan Ceyhun Hacıbəyliyə İstanbuldan yazdığı məktublardan birində ona məsləhət görürdü ki, Fransanın indiki vəziyyətindən məqalələr yazsın və yazarkən ölkənin siyasi həyatındakı qüvvələrin təhlilinə diqqət etsin: "Bu, Fransa siyasətində əsas rol oynayan qüvvələrin hansılar olduğunu bilmək üçün çox vacibdir, bakalım, Fransa siyasətində əsas rol oynayan qüvvələr hansılardır və bu qüvvələrin təsiri ilə Fransanın ana siyasəti nə şəkil ola bilir? Bu kimi məqalələrin buradakı (İstanbuldakı – T.H.) mübariz arxadaşlar və oxucularımız üçün çox faydası vardır və buna möhtacdırlar."

Məhəmməd Əmin Rəsulzadənin bu fikri İslami birlik ideyasının alovlu təbliğatçısı, məramı dünya müsəlmanlarının birliyi olan böyük filosof, siyasi xadim Seyid Cəmaləddin Əfqani-Həmədanini xatırladır. Seyid Avropalıların Şərqə uzanan əllərini kəsmək üçün, eyni zamanda Avropadan öyrənməyin zəruri olduğunu da göstərirdi. Bu fikri ilk dəfə söyləyənlərdən biri Seyid Cəmaləddin Əfqani olmuşdur. Onun proqramının bir hissəsini Şərqi zəbt eləmək cəhdlərinin qarşısını almaq təşkil edirdi.

Rəsulzadə məktublarının birində Ceyhun Hacıbəylinin "Yeni Kafkasya" qəzeti barədə xoş sözlərini, mülahizələrini diqqətə çatdırır, ona yazırdı: "Mücadiləmiz millidir və məcmuədə həlli bir ahənglə davam edir" (3,28).

İstanbulda nəşr olunan «Yeni Kafkasya» özünün son nüsxələrindən birində Azərbaycanda baş verən həbslər barədə məlumat dərc etmiş, Əli Yusiflinin (Yusifzadə Əli Cəlal oğlu – T.H.) də həbs etdiyi barədə yazmışdır. ÇK-nın onunla vəhşicəsinə rəftar etdiyi ürək ağrısı ilə bildirilmişdir (Qeyd etmək lazımdır ki, Əli Yusifli XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərmiş müəllim-yazıçı Cəlal Yusifzadənin oğludur, 26 yaşında sürgündə qətlə yetirilmişdir). «Yeni Kafkasya» qəzetində şair Əhməd Cavadın da həbs olunduğu, ona əzab verildiyi barədə məlumat dərc olunmuşdur.

Rəsulzadənin Ceyhun Hacıbəyliyə yazdığı 11 aprel 1924-cü il tarixli məktubunda «Yeni kafkasya»nın böhran halı keçirməkdə olduğu bildirilir, qəzetin tamamilə müavinətsiz qaldığı barədə məlumat verilidir, Ceyhundan abunə qeydinə kömək etməyin vacib olduğunu xahiş edir (3, 35).

22 iyul 1924-cü il tarixli məktubdan məlum olur ki, Rəsulzadə Əkbər ağa Şeyxülislamov vasitəsilə bir miqdar dollar almışdır. Bu barədə Ceyhun Hacıbəyliyə yazır: «Hər kəs Sizin qədər vəzifəşünas olsaydı, bəlkə də «Yeni Kafkasya» bu qədər şiddətli böhran keçirməzdi» (3, 39). Qeyd etmək lazımdır ki, Ceyhun Hacıbəyli özü ehtiyac içində olsa da, daim qəzetin davam etməsi üçün mənbələr arayırdı. Məktubda Əli Yusifin Rusiyaya sürgün edildiyi və Bakı qəzetlərinin M.Ə.Rəsulzadənin İstanbuldan uzaqlaşdırılması tələbini irəli sürdükləri barədə məlumat verilir. Ceyhun Hacıbəylinin də İstanbula gəlməsini arzulayan M.Ə.Rəsulzadə ona qəzetin 2-ci il nəşrə başlanmasını təbrik etdiyi üçün təşəkkürünü bildirmişdir. Həmin məktubda Rəsulzadə yazırdı: «Ailəmi buraya gətirmək istəyirəm. Bir-iki dəfə təşəbbüs etmişlər. Fəqət hələlik buna müvəffəq olmamışlar. Zavallılar orada çox darıxırlar. Mən də burada narahatam» (3, 23).

N.Nərimanovun 1925-ci il mart ayının 19-da Moskvada dünyasını dəyişməsi Məhəmməd Əminə ağır təsir bağışlamış, "Yeni Kafkasya"nın 31 mart tarixli sayında böyük insanın xatirəsini yad etmiş, yazmışdır: "Rus süngüləri ucunda hökümət kürsüsünə oturan Nəriman bu kürsüdə bir ildən artıq qalmadı... Moskvada son günlərini mənəvi bir sıxıntı içində keçirmiş və dünyadan bu üzüntü ilə getmişdir". (3).

19 iyul 1925-ci il tarixli məktubda «Yeni Kafkasya» qəzetinin bütün ağırlığının təkcə onun öhdəsində olduğunu yazırdı (3, 58).

Bu çətinliyə baxmayaraq "Yeni Kafkasya" qəzeti 1927-ci ildə də nəşrini davam etdirmişdir.

İstanbulda çətin şəraitdə yaşayan M.Ə.Rəsulzadə Bakı ilə daim əlaqə saxlayır, orada müsəlman ziyalıları arasında çoxlu həbslərin olduğu barədə Ceyhun Hacıbəyliyə yazırdı.

Qəzet yalnız Azərbaycan həqiqətlərini, Bakıda baş verən cinayətləri işıqlandırmırdı, onun səhifələrində (xüsusən 1926, 1927-ci il saylarında) Rusiyanın türklərlə müharibəsindən, türkdilli ölkələrdə, Türküstanda çar senzurasının fəaliyyətindən, qəzetləri bağlaması hallarından və s. xəbərlər barədə məlumat öz əksini tapırdı. (4).

8 dekabr 1926-cı il tarixli məktubdan onun «Azərbaycan» adlı qəzeti nəşr etməyə başladığı məlum olur: «Azərbaycan» adlı qəzeti nəşr etməkdə məqsədim Avropa ictimai fikrini həm Azərbaycan, həm də firqə («Müsavat» partiyası – A.B.) haqqında məlumatlandırmaqdır» (3, 72).

M.Ə.Rəsulzadənin İstanbulda «Odlu Yurt» adlı məcmuənin nəşrinə başladığı barədə məlumat 9 mart 1929-cu il tarixli məktubunda verilmişdir. Bu məcmuənin nəşrindən məqsəd Azərbaycan istiqlalı ideyasının təbliği olmuşdur. Məcmuə 1929-1931-ci illərdə İstanbulda nəşr edilmişdir.

Məmməd Əmin Rəsulzadə qardaş Türkiyə Respublikasını özünün ikinci vətəni bildi və 1955-ci ildə dünyasını orada dəyişdi.

**Nəticə**

*Azərbaycan milli qurtuluş hərəkatının lideri Məhəmməd Əmin Rəsulzadə görkəmli siyasi xadim olmaqla yanaşı, Azərbaycan tarixinin gözəl bilicisi, ədəbi əsərləri dərindən tədqiq edən qüdrətli ədəbiyyatşünas və eyni zamanda mahir söz ustası idi. Onun siyasi düşüncəsinin bəzi məqamları İslami birlik ideyasının alovlu təbliğatçısı, məramı dünya müsəlmanlarının birliyi olan böyük filosof, siyasi xadim Seyid Cəmaləddin Əfqani-Həmədanini xatırladır.*

**Ədəbiyyat siyahısı:**

1. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu. Bakı: «Elm», 2009, 538 s.
2. Rəsulzadə M.Ə. Əsərləri, C.5. (1918-1920, aprel). Bakı: «Qanun», 2014, 564 s.

3. Rəsulzadə M.Ə. Məktublar. Şəfibəyçilik. Tərtib edən A.Balayev. Bakı: Kitab Klubu orq., 2017, 196 s.
4. 525-ci qəzet, 2019 2 mart, səh.20
5. 525-ci qəzet, 2019 13 aprel, səh.20-21

**Тагира Гасанзаде**

**Лидер Азербайджанской демократической республики Мамед Эмин Расулзаде и его газета «Ени Кавкасия» («новый кавказ») в стамбуле**

Статья рассказывает о политической деятельности лидера АДР М.Э.Расулзеде в Стамбуле.

Живший в эмиграции М.Э.Расулзаде в 1923-1927 гг. издает газету «Ени Кавкасия» («Новый Кавказ»). На страницах газет отражаны события, которые происходили в Азербайджане также тюркском мире в те тяжелые времена. М.А.Расулзаде был глубоко впечатлен смертью Нариман Нариманова и почтил память великого человека в газете «Новый Кавказ», датируемой 19 мартом 1925 года. С глубокой болью в душе, он подчеркивал, что Нариманов занимал свой правительственный пост под угрозой большевистских штыков. Кроме того, в газете было отмечено, что от царской цензуры пострадал не только Азербайджан, но и другие тюркоязычные государства.

***Ключевые слова:*** *М.А.Расулзаде, Азербайджанская Демократическая Республика, миграция, Джейхун Гаджибейли, Париж, Стамбул.*

**Tahira Hasanzadeh**

**The leader of the Azerbaijan democratic republic in İstanbul with his newspaper "new caucasus"**

The article is about Mahammad Amin Rasulzadeh`s political activity who lived a refugee life. The letters written to Jeyhun Hajibeyli reveal that in 1923-1927 M.A.Rasulzadeh published the newspaper “New Caucasus” (“Yeni Kafkasya”). He spread events happening in Azerbaijan around the world by his newspaper. After Nariman Naimanov’s death M.A.Rasulzadeh was deeply impressed by it and commemorated him in his “New Caucasus” newspaper. Rasulzadeh wrote an article in N.Narimanov’s memory and published it in the mentioned newspaper. In the article the author sadly emphasized that N.Narimanov had hold his governmental post by force of Russian bayonets. Besides, it was noted that not only Azerbaijan suffered from the tsar censorship, but also other Turkic-speaking countries used to face it.

***Key words:*** *M.A.Rasulzadeh, Azerbaijan Democratic Republic, migration, Jeyhun Hajibeyli, Paris, Istanbul.*

Redaksiyaya daxil olma tarixi: 13.08.2019
Çapa qəbul olunma tarixi: 14.09.2019

Tarix üzrə elmlər doktoru, professor
**Fərid Ələkbərli** tərəfindən çapa tövsiyə olunmuşdur.